# 18 oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günüdür

18 oktyabr Azərbaycanın Dövlət Müstəqilliyi Günüdür. 27 il öncə Azərbaycan Ali Soveti Dövlət




Müstəqilliyi haqqında Konstitusiya Aktını qəbul edib. Oktyabrın 8-də işə başlayan növbədənkənar sessiya məsələni 4 gün müzakirə etsə də, qərar verməyi bir həftə sonraya saxlayır. Nəhayət, 1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında tarixi sənəd qəbul edilir. 1993-cü ildə ölkəmizdə ikinci dəfə hakimiyyətə qayıdışından sonra ulu öndər Heydər Əliyev Azərbaycanın müstəqilliyinin əbədi və dönməz edib.

Ötən əsrin sonlarında Sovetlər Birliyi ideoloji böhran həddinə çatdı. 90-cı illərin əvvəllərində SSRİ-nin demək olar ki, əksər regionlarında millətlərin və xalqların azadlıq hərəkatı başladı. İmperiyanın siyasi beyin mərkəzi Sovet hərb maşınının köməyi ilə müxtəlif bölgələrdə o cümlədən Bakıda qanlı qırğınlar törətməklə SSRİ-yə süni nəfəs verməyə çalışırdı. Lakin bu mümkün olmadı. 1991-ci ilin avqustunda İttifaqın ləğv edilməsi haqqında qərar verildi və Sovetlər Birliyi dünya xəritəsindən silindi. SSRİ-yə daxil olan digər müttəfiq respublikalar kimi həmin ilin oktyabrın 18-də Azərbaycan Ali Soveti də dövlət müstəqilliyi haqqında konstitusiya aktı qəbul edib və suveren dövlət kimi Azərbaycan Respublikası dünya birliyinin üzvü olub. Dövlət Müstəqilliyi Haqqında konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də Azərbaycan özünün əsl müstəqilliyini ümummilli lider Heydər Əliyevin qayıdışından sonra əldə edib.

1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Heydər Əliyev özü ilə bərabər Azərbaycana siyasi müdriklik gətirdi. Məhz milli liderin zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtardı. Ulu öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi, siyasi və mənəvi psixoloji gərginliyi aradan qaldırdı. Müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutdu. Respublikamızı Şərqdə ilk demokratik cümhuriyyət olan Azərbaycan Xalq Cümhuriyyətinin varisi elan edən ümummilli lider Heydər Əliyev müstəqilliyi qorumaq onu əldə etməkdən qat-qat çətindir məntiqi ilə nəhəng dövlət quruculuğu işlərinə başladı. Ulu öndər qarşıya çıxan bütün sərhədləri yardı və qısa vaxt ərzində Azərbaycanın səsi ən nüfuzlu beynəlxalq təşkilatların kürsüsündən gəldi. Müstəqilliyin əvəzsiz nemət olduğunu və xalqın tarixi taleyində çox önəmli rol oynadığını böyük qürur hissi ilə bəyan edən Heydər Əliyev Azərbaycanın müstəqilliyini əbədi və dönməz etdi. 1994-cü ilin 20 sentyabrında Heydər Əliyevin müəllifi olduğu nəhəng neft müqaviləsi–"Əsrin müqaviləsi" imzalandı. Bununla da Azərbaycan ilk dəfə olaraq öz sərvətlərinin sahibi kimi çıxış etdi. Dünyanın aparıcı dövlətlərinin ən qabaqcıl şirkətlərinin bu kontraktda iştirakı isə ölkəmizin regionda əhəmiyyətini və nüfuzunu artırdı. Azərbaycan iri regional layihələrə, Avropanın və bütövlükdə dünya enerji təhlükəsizliyi sisteminə qoşuldu. 1993-cü ildən başlayaraq dövlət müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində görülən işlər və atılan məqsədyönlü addımlar Azərbaycanın bugünkü uğurları üçün ən etibarlı təməl oldu. Bir sözlə əgər müstəqillik Azərbaycanın suveren dövlət kimi mövcud olması tarixi zərurətdən irəli gələn hadisə idisə Azərbaycanın müstəqilliyi əbədiliyi və dönməzliyi ümummilli lider Heydər Əliyevin adı və fəaliyyəti ilə bağlı olan müasir tariximizin danılmaz faktıdır. Məhz dövlət müstəqilliyi Heydər Əliyev faktı yeni və qlobal dünyada ölkəmizin yerini müəyyənləşdirdi. Azərbaycanın dünyaya, dünyanın Azərbaycana gərəklili olduğunu sübut etdi.

# Dövlət Müstəqilliyi Günü keçirilib

Qəbələ Mədəniyyət Mərkəzində Azərbaycanın Dövlət Müstəqilliyi Günü münasibəti ilə tədbir keçirilib.

Tədbirdə çıxış edən mərkəzin direktoru Malik Ağayev XX yüzilliyin sonlarında SSRİ-nin süquta uğraması ilə yaranan əlverişli tarixi şərait nəticəsində xalqımızın XX yüzillikdə ikinci dəfə müstəqillik bayrağını qaldırdığını və 1991-ci il avqustun 30-da Azərbaycan Respublikası Ali Sovetinin xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyasında Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etməsi haqqında bəyannamə qəbul olunduğunu qeyd edib.

Azərbaycan Respublikasının Ali Sovetinin həmin ilin 18 oktyabr tarixli sessiyasında "Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktının yekdilliklə qəbul etdiyini vurğulayan Malik Ağayev dövlət müstəqilliyimizin xalqımızın əzəli və əbədi arzusu olduğunu diqqətə çatdırıb.

Yekunda Dövlət Müstəqilliyi Gününə həsr olunmuş videoçarx nümayiş etdirilib.

**"Qəbələ"**

# Qəbələyə gələn turistlərin sayı artır



Ötən ilə nisbətən bu il qış turizmi ilə bağlı rayonumuza gələn turistlərin sayının daha da artacağı gözlənilir.

Dünyada populyar olan qış turizm mövsümünün-- xizəksürmənin başlaması ilə bağlı turizm şirkətləri tərəfindən xarici tərəfdaşlara turpaketlərin göndərilməsinə başlanılıb.

Qəbələdə hər il bu sahə inkişaf etdiyindən peşəkar xizəkçilər müntəzəm olaraq rayonumuza gəlirlər.

"Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksindən müxbirimizə verilən məlumata görə peşəkar xizəkçilərin çoxu istirahət üçün məhz Qəbələni seçirlər.

**"Qəbələ"**

# İnternet təhlükəsizliyi haqqında seminar

Qəbələ şəhər 5 nömrəli tam orta məktəbdə internet təhlükəsizliyi haqqında seminar təşkil edilib. Seminarda şagirdlərə internetdə olan təhlükələr haqqında nəzəri və praktiki məsləhətlər, məktəbdən kənar təhdidlərin tanınması və onlarla mübarizə yolları haqqında məlumatlar verilib.



Tədbirdə kibertəhlükəsizlik və internetdən təhlükəsiz istifadə son illər cəmiyyət üçün ən aktual məsələlərdən birinə çevrildiyinə görə bu istiqamətdə məktəblilərin maarifləndirilməsinin böyük əhəmiyyət kəsb etdiyi vurğulanıb.

**Rais RƏŞİDOV,**
**«Qəbələ»**

# Müsabiqədən kubokla qayıdıblar

Dünya Kulinariya Təşkilatları Birliyinin yaradılmasının 90 illiyi münasibəti ilə peşə təhsili müəssisələrində kulinariya üzrə təhsil alan tələbələrin II respublika müsabiqəsi başa çatıb.

Yarış Azərbaycan Respublikası Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyi və Azərbaycan Milli Kulinariya Assosiasiyasının birgə təşkilatçılığı, «Azərbaycanda Peşə Təhsili və Təliminin İnkişafına Avropa İttifaqının Dəstəyi» texniki yardımı layihəsinin dəstəyi ilə Bakı şəhərində keçirilib.

Müsabiqədə 10-dan çox komanda iştirak edib. Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzini 4 nəfər–aşpaz peşəsi üzrə istehsalat təlim ustası, mühəndis-texnoloq Azər Abdulxalıqov, aşpaz qrupunun tələbələri Elşad İbrahimov, Razil Həşimli və qənnadıçı-şirniyyatçı qrupunun tələbəsi Bəhruz Rəcəbli təmsil ediblər.

100 ballıq sistem üzrə qiymətləndirmə qaydalarına əsasən münsiflər heyəti tərəfindən tədris mərkəzimizin komandası müsaqibədə 3-cü yerə layiq görülüb. Tələbələrimizə müsabiqənin medalları, sertifkatları verilib, müəllim və digər şagirdlərimiz isə kubokla qayıdıblar.

Uğur qazanan gənc kulinarlarımızı da ürəkdən alqışlayırıq.

**Reyhan MƏMMƏDOVA,**
**tədris İstehsalat İşləri üzrə direktor müavini.**

# Maraqlı tədbir

Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzində «Kəndin sosial-ictimai həyatında qadınların və gənclərin fəal iştirakının təmin edilməsi» adlı tədbir keçirmişdir. Tədbirdə Azərbaycan qadınlarının keçdiyi böyük, şərəfliyoldan söz açılıb.

Tarix boyu qadına münasibətin müxtəlif ölkələrdə, müxtəlif siyasi quruluşlarda eyni cür olmadığı qeyd edilərək Azərbaycan qadınının bir çox sahələrdə–kənd təsərrüfatı, sənaye elm və incəsənətdə böyük uğurlar qazandığı bildirilib. Lakin iş tapmaqda, öz fərdi biznesini qurmaq sahəsində köməyə ehtiyacı olan qadınlarımız və gənclərimizin də olduğu vurğulanıb. Belə ki, hər hansı bir sahədə öz biznesini qurmaq, necə başlayıb nailiyyətlər qazanmaq sualı altında qalan zəif cinsin nümayəndələri də vardır.



Aparılan qarşılıqlı müzakirələrdə qadınlara və gənclərə müvafiq məsləhətlər verilməklə onlara istiqamətlər göstərilib, yeni açılmış iş yerləri, müəssisələr haqqında məlumatlar çatdırılıb. Qadınların kənd təsərrüfatında fəallığının artırılması məqsədi ilə, maldarlığın, quşçuluğun, baramaçılığın, tütünçülüyün, heyvandarlığın, meyvəçiliyin, üzümçülüyün və s. sahələrin inkişaf etdirilməsi ilə bağlı məsləhətlər verilib.

**Hökümə İSMAYILOVA.**